# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDU

Bakı şəhəri 28 dekabr 2012-ci il

## Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu ilə Belarus Respublika Fundamental Tədqiqatlar Fondunun birgə elmi-tədqiqat layihələrinin və proqramlarının maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 1-ci Azərbaycan-Belarus beynəlxalq müsabiqəsinin (EİF-BGM-2-BRFTF-1-2013) keçirilməsi haqqında

## E L A N

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu beynəlxalq əlaqələrini genişləndirir və birgə qrant müsabiqələrinin keçirilməsi üzrə əməkdaşlıq sahəsində konkret planlar həyata keçirir. Elmin İnkişafı Fondu digər ölkələrdəki analoji qurumlarla müntəzəm olaraq əlaqə saxlayır və təcrübə mübadiləsi aparır. 2010-2011-ci illərdə Avropa Komissiyasının 7-ci Çərçivə Proqramı ilə əməkdaşlıq da uğurlu olmuşdur.

28 sentyabr 2012-ci il tarixində Minsk şəhərində Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu (EİF) ilə Belarus Milli Elmlər Akademiyası (BMEA) və Belarus Respublika Fundamental Tədqiqatlar Fondu (BRFTF) arasında əməkdaşlıq haqqında beynəlxalq Saziş imzalanmışdır.

Azərbaycan və Belarus alimlərindən ibarət müvəqqəti yaradılmış yaradıcı kollektivlərin birgə yerinə yetirilməsi planlaşdırılan və hər iki tərəf üçün aktual olan elmi istiqamətlər üzrə elmi-tədqiqat layihələrini (bundan sonra - layihələr) dəstəkləmək, beynəlxalq elmi əməkdaşlıq fəaliyyətini stimullaşdırmaq və müasir elmi problemlərin həlli üçün əlavə yaradıcılıq imkanı yaratmaq məqsədilə Elmin İnkişafı Fondu, cari müsabiqənin razılaşdırılmış elmi prioritetlərinə uyğun olaraq, 1-ci Azərbaycan-Belarus birgə beynəlxalq qrant müsabiqəsini (EİF-BGM-2-BRFTF-1- 2013)

ELAN EDİR:

1. Aşağıdakı elm sahələri üzrə **fundamental-tətbiqi xarakterli beynəlxalq layihələrin *orta maliyyə həcmli (10 000 – 100 000 manat) qrantlar* vasitəsilə maliyyələşdirilməsi:**

- Fizika-riyaziyyat və texnika elmləri;
- Humanitar və ictimai elmlər.

Bu qrantlar yalnız Azərbaycan və Belarus alimlərindən təşkil olunmuş kollektivlərə verilir.

2. Elmi-tədqiqatların müasir tələblərə cavab verən **maddi-texniki təminatı (elmi cihazlar, qurğular, avadanlıqlar və s. alınması)** üzrə ***kiçik*** **(10 000 manatadək) və *orta* (10 000 – 100 000 manat) *maliyyə həcmli qrantların* verilməsi.**

Bu qrantlar yalnız Azərbaycan alimləri tərəfindən təqdim olunan, Belarusdan əldə olunması planlaşdırılan maddi-texniki təminatı nəzərdə tutan və gələcəkdə hər iki ölkə alimləri arasında layihənin mövzusu üzrə əməkdaşlığın davam etdirilməsi perspektivləri olan layihələrə verilir.

**Bu müsabiqə çərçivəsində qrant maliyyələşdirilməsinin cəmi həcmi: 600 000 manat**

Müsabiqədə iştirak etmək üçün ərizələr, ərizəyə əlavə olunan müvafiq sənədlər və digər müşayiətedici materiallar 2013-cü il 10 yanvar tarixindən başlayaraq qəbul olunur.

Müsabiqədə iştirak etmək üçün ərizələrin, ərizəyə əlavə olunan müvafiq sənədlərin və digər müşayiətedici materialların qəbulu üçün son tarix 2013-cü il 1 mart saat 17:00-dır.

Elmin İnkişafı Fondu tərəfindən qrantların verilməsi üzrə 1-ci birgə beynəlxalq müsabiqənin (EİF-BGM-2-BRFTF-1-2013) nəticələri 2013-ci ilin **may ayında** açıqlanacaqdır.

Qrantların verilməsi üzrə müsabiqənin keçirilmə prinsipləri, müsabiqədə iştirak etmək üçün ərizələr, ərizəyə əlavə olunan müvafiq sənədlər və digər müşayiətedici materialların verilməsi və qeydiyyatı qaydaları, layihələrin ekspertizasının ümumi qaydaları, layihələrin həyata keçirilməsi şərtləri, müsabiqələrin xüsusiyyətləri də daxil olmaqla qrantların verilməsi üzrə müsabiqənin keçirilməsi qaydaları ilə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun 25 iyun 2010-cu il tarixli Q-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə müsabiqələrinin keçirilməsi Qaydaları"nda (http://sdf.gov.az/qrant/qaydalar) tanış olmaq olar.

Müsabiqədə iştirak etmək istəyən şəxslərə "Elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə müsabiqələrinin keçirilməsi Qaydaları" ilə tam tanış olduqdan sonra müvafiq ərizə və sənədləri tərtib etmələri tövsiyə olunur.

**Cari müsabiqənin keçirilməsinin digər prinsipləri isə aşağıdakılardır:**

1. Birgə qrant layihəsi ilə müsabiqədə iştirak etmək istəyən Azərbaycan və Belarus alimləri sənədlərin təqdimindən əvvəl danışıqlar aparmalı, qrant layihəsinin mövzusunu,

şərtlərini və digər müvafiq məsələləri qarşılıqlı şəkildə razılaşdırmalıdırlar.

2. Müsabiqəyə təqdim edilən hər bir layihə həmin layihə üzrə həm-rəhbərlərlə (Azərbaycan və Belarus tərəfindən) təmsil olunmalıdır.
3. Müsabiqəyə Azərbaycan və Belarus alimlərindən təşkil olunmuş kiçik (hər tərəfdən 5 nəfərədək olmaqla) müvəqqəti yaradıcı kollektivlər tərəfindən həyata keçirilməsi nəzərdə tutulan elmi-tədqiqat layihələri qəbul olunur.
4. Layihənin icra müddəti 2 ildən artıq olmamalıdır, elmi-tədqiqat qurumlarının planları üzrə mövzunun layihədə təkrarlanması yol verilməzdir.
5. Elmin İnkişafı Fondu tərəfindən əvvəlki müsabiqələr üzrə maliyyələşdirilmiş və hal-hazırda maliyyələşdirilən, həmçinin digər fond və qurumlar tərəfindən maliyyələşdirilən mövzular üzrə layihələr müsabiqəyə qəbul olunmur.
6. **Elmin İnkişafı Fondunun cari qrant layihələrinin rəhbər və icraçıları bu müsabiqədə iştirak edə bilməzlər.**
7. **Cari müsabiqədə hər bir şəxs yalnız bir layihə üzrə qrant iddiaçısı ola bilər (rəhbər və ya icraçı qismində).**
8. Birgə müsabiqəyə qrant layihəsi üzrə ərizə və sənədlər EİF və BRFTF (http://fond.bas-net.by/if210.html) tərəfindən daxili müsabiqə qaydalarına əməl olunmaqla və müvafiq formalar əsasında hazırlanmaqla təqdim olunmalıdır. Bu zaman Azərbaycandan olan layihə həm-rəhbəri sənədləri birbaşa EİF-ə, Belarusdan olan həm-rəhbər isə BRFTF-ya təqdim edir.
9. EİF-ə və BRFTF-ya parallel olaraq təqdim olunan layihələrin əsas bəndləri (layihənin adı, layihənin əsaslandırılması, icmal, gözlənilən nəticələr və s.) identik olmalıdır, layihənin yerinə yetirilmə mərhələləri isə qarşılıqlı olaraq razılaşdırılmalıdır. Layihədə Azərbaycan və Belarus tərəfindən olan alimlər qrupunun hər birinin hansı məsələləri həll edəcəyi konkret olaraq göstərilməlidir.
10. Müvəqqəti yaradıcı kollektivin Azərbaycan tərəfdən olan həm-rəhbəri və icraçıları müəyyənləşdirilərkən Elmin İnkişafı Fondunun müsabiqələrinin keçirilmə Qaydalarının 2.1 və 2.3 bəndlərinin tələbləri nəzərə alınmalıdır **(http://sdf.gov.az/qrant/qaydalar/eif_musabiqe_qaydalari.pdf).**
11. Müsabiqəyə təqdim olunmuş layihələr EİF və BRFTF qaydalarına uyğun olaraq texniki və elmi ekspertiza mərhələlərindən keçir. Bu zaman tərəflərin çarpaz elmi ekspertizası da nəzərdə tutulur.
12. Müsabiqənin qalibi olmuş müştərək layihələr üzrə əqli mülkiyyət hüququnun qorunması və ondan istifadə haqqında tərəflər arasında saziş bağlana bilər.
13. Müsabiqənin nəticələrinə görə qalib gəlmiş müştərək layihələrin icrası zamanı Azərbaycan və Belarus tərəfləri yalnız öz hissələrini maliyyələşdirir. EİF ilə qalib layihə rəhbəri arasında layihənin icrası üzrə müqavilə bağlanılır və Ədliyyə Nazirliyində qeydiyyatdan keçirilir.

Qrantların verilməsi üzrə müsabiqədə iştirak etmək üçün ərizə və müvafiq sənədlər (Microsoft Word formatında) Elmin İnkişafı Fondunun internet saytının

(http://sdf.gov.az/qrant/senedler/index.html) "Qrant müsabiqələri" bölməsindən əldə edilə bilər.

Bütün layihələr, bir qayda olaraq, **Azərbaycan** (2 nüsxə) və **rus** (1 nüsxə) dillərində tərtib edilməlidir. Müşayiətedici materiallar (məqalələrin, diplomların və digər sənədlərin surətləri, zəmanət məktubları və b.) isə 1 nüsxədə təqdim olunur.

Layihələr üç formatda (kağız üzərində, elektron məlumatdaşıyıcılarına yazılmış şəkildə və elektron variantın elektron ünvana göndərilə bilməsi üçün elektron fayllar şəklində) aşağıdakı üsullarla təqdim olunmalıdır:

1. Müsabiqədə iştirak etmək üçün layihə rəhbəri tərəfindən imzalanmış ərizənin, ərizəyə əlavə olunan sənədlərin və digər müşayiətedici materialların A4 formatlı ağ kağızda çap olunmuş variantını (Azərbaycan dilində 2 nüsxə, rus dilində 1 nüsxə) və elektron məlumatdaşıyıcılarına (CD, DVD və s.) yazılmış versiyasını birlikdə:
   - Elmin İnkişafı Fondunun icraçı direksiyasının ünvanına **(AZ-1069, Bakı şəhəri, Atatürk prospekti, 48B)** (sifarişli üsulla) poçt vasitəsilə göndərmək yolu ilə:
   - və ya Elmin İnkişafı Fondunun icraçı direksiyasının yuxarıda göstərilən ünvanda yerləşən **inzibati binasına** həftənin iş günlərində (bazar ertəsi – cümə) saat 10:00-dan 17:00-dək birbaşa çatdırmaqla və qeydiyyatdan keçirmək yolu ilə (elektron-poçt göndərişi zamanı mümkün itmələrdən və adi poçt daşınması zamanı təsadüfi mexaniki zədələrdən yayınmaq üçün);
2. Müsabiqədə iştirak etmək üçün ərizənin, ərizəyə əlavə olunan sənədlərin və digər müşayiətedici materialların elektron variantını (Microsoft Word formatında elektron fayllarını) Elmin İnkişafı Fondunun **elektron-poçt ünvanına** (qrant@elmfondu.az) göndərmək yolu ilə (bu zaman elektron məktubun "mövzu" ("subject") hissəsində aşağıdakı yazılışdan istifadə olunmalıdır: "EİF-BGM-2-BRFTF- 1-2013" *Layihə rəhbərinin soyadı və adı - Elm sahəsinin adı*").

**Elektron variantı təqdim olunmadığı halda, həmçinin Microsoft Word formatında olan Formalara özbaşına düzəlişlər edildikdə layihə birmənalı olaraq texniki ekspertiza mərhələsindən keçmir.**

Ərizənin, ərizəyə əlavə olunan sənədlərin və digər müşayiətedici materialların elektron variantının kağızda olan variantına tam uyğun olmasına məsuliyyəti layihə rəhbəri daşıyır.

**Müsabiqənin keçirilməsi qaydaları və müddəti çərçivəsindən kənar təqdim olunan layihələr müsabiqənin texniki ekspertiza mərhələsindən qəti olaraq keçmir və elmi ekspertiza mərhələsinə buraxılmır. Müsabiqəyə təqdim edilmiş sənədlər geri qaytarılmır.**

Müsabiqədə iştirak məqsədilə, o cümlədən layihələrin ekspertizası mərhələlərində saxta sənəd, imza və məlumatların təqdim olunması layihənin elmi ekspertizadan kənarlaşdırılmasına səbəb olur.

Elmin İnkişafı Fondu eyni zamanda, şəffaflığı və bərabərliyi təmin etmək məqsədilə təqdim olunmuş və texniki ekspertizadan keçmiş bütün layihələrin müvafiq qaydada açıqlana biləcək hissəsinin internet səhifəsi vasitəsilə forum xarakterli ictimai-elmi müzakirəsi işini də təşkil edə bilər. Bu tipli müzakirə təqdim olunmuş layihə texniki

ekspertizadan keçdikdən sonra başlana və elmi ekspertiza bitənədək olan müddət ərzində həyata keçirilə bilər.

Müsabiqəyə təqdim edilmiş bütün layihələrin ideyasının obyektiv formada orijinal ifadəsi müəlliflik hüququnun obyekti kimi Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyində qeydiyyatdan keçiriləcəkdir.

Müsabiqədə iştirak etmək üçün ərizələrin və ərizəyə əlavə edilən müvafiq sənədlərin, Müsabiqələrin keçirilməsi Qaydalarının əldə olunması ilə bağlı problemlər yarandığı təqdirdə Elmin İnkişafı Fondunun icraçı direksiyası (Bakı şəhəri, Nərimanov rayonu, Atatürk prospekti, 48B) ilə birbaşa əlaqə saxlanılması tövsiyə olunur. Əlaqə telefonu: 563-61-11, elektron poçt ünvanı: qrant@elmfondu.az

Sualların elektron poçt ünvanına göndərilməsi təqdir olunur. Digər tərəfdən, sənədlərin qəbulu üçün nəzərdə tutulmuş müddət ərzində qrant iddiaçılarına kömək və sualların cavablandırılması məqsədilə məsləhət seminarlarının keçirilməsi nəzərdə tutulmuşdur.

**Elmin İnkişafı Fondunun**
**icraçı direksiyası**